

ABŞ-ın vitse prezidenti Co Bayden bu gün Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğana zəng edərək ondan üzr istəyib.

Co Bayden bu həftənin cümə axşamı Harvard Universitetində etdiyi açıqlamada Türkiyəni İŞİD-ə dəstək verməkdə suçlamışdı. ABŞ-ın vitse prezidenti həmin açıqlamada demişdi ki, türklər çox yaxşı dostumuzdur və mənim də uzun müddət Ərdoğanla dostluq əlaqəm var.

“Suriya prezidenti Bəşər Əsədi devirmək üçün səudiyyəlilər, əmrliklər və başqaları heç bir addım atmadılar. Ərdoğan köhnə bir dostumdur, mənə dedi ki, siz haqlı idiniz, çox-çox insanın Suriyaya keçidinə icazə verdik, indi sərhədi bağlamağa çalışırıq”, - deyə Co Bayden bildirib.

Qeyd edək ki, Rəcəb Tayyib Ərdoğan bu gün səhər saatlarında, namaz qıldığı Sultanahmet məscidində Türkiyə ilə bağlı həqiqətə uyğun olmayan fikirlər səsləndirdiyinə görə, ABŞ-ın vitse prezidenti Co Baydenə sərt mesajlar göndərib: “Co Bayden deyir ki, güya, Türkiyə İŞİD-ə kömək edir. Bu iddia kökündən yanlışdır. Biz heç vaxt İŞİD kimi bir terror təşkilatına kömək edə bilmərik. Bunu kimsə isbat edə bilməz. Xarici döyüşçülər əsla bizim ölkəmizdən Suriyaya girməyib. Turist pasportuyla gəlib, Suriyaya keçib, amma silahlı olaraq keçdiyini kimsə söyləyə bilməz. Biz bu ana qədər 6 min adamın Türkiyəyə girişinə qadağa qoymuşuq. Bunları bildikləri halda Fransa deyir ki, 1000-dən çox döyüşçüsü ordadır. İngiltərə isə 600 döyüşçü haqda məlumat verir. Bunları özləri söyləyir. Özləri söylədikləri halda Türkiyəni bu cür ittihamlarla qarşı-qarşıya buraxmaq çox səhvdir. Hörmətli Bayden də deyir ki, guya biz İŞİD-ə dəstək dururuq. O, belə bir şey söylədisə, bizdən üzr diləməlidir”, - deyə Ərdoğan əlavə edib.